# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 445** **Bakı şəhəri, 19 dekabr 2022-ci il**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 11 avqust tarixli 123 nömrəli Qərarı ilə təsdiq edilmiş “İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizmi Qaydaları”nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 11 avqust tarixli 123 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 676; 2015, № 7, maddə 880; 2016, № 9, maddə 1585; 2020, № 2, maddə 211, № 10, maddə 1306; 2022, № 4, maddə 420) ilə təsdiq edilmiş “İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizmi Qaydaları”na aşağıdakı məzmunda 2.7.2-1-ci yarımbənd əlavə edilsin:

“2.7.2-1. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin insan alverinin qurbanına çevrilmə risklərinin qarşısının alınması məqsədilə onların xidmət sektorundakı fəaliyyəti ilə bağlı ölkədaxili vəziyyəti təhlil edir;”.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının**
**Baş naziri**

Xalq qəzeti.- 2022.- 21 dekabr.- S.8.